# POEZİYA BUKETİ

## Payız bağları

Budaqlar titrəyir həzin küləkdən,
Salxımlar özünü asıb tənəkdən.
Quzular sıçrayıb keçir xəndəkdən,
Yenə cərgələnir payız bağları.

Zığzığlar bu yerdə hakimdir yenə,
Qarğalar qoz gəzir hey dönə-dönə.
Təbiət bürünüb sarı bir dona,
Yenə sərgilənir payız bağları.

Səs-küy bu yerlərdən baş alıb gedib,
Payızın havası bağı məst edib.
Qurqurəng, bildirçin hardasa itib,
Yenə sərçələnir payız bağları.

## Qara qovaq



Bəs o günlər, bəs o zaman
Uçub getdi hara, qovaq?

Bir vaxt mənə doğma idin,
Ey möhtəşəm qara qovaq.
Deyirdim ki, yetirərsən
Məni bir gün yara, qovaq.

Heyif indi nə sən varsan,
Nə o çağlar, nə o dövran.

Yaşayırsan diləyimdə,
Ağır yüksə kürəyimdə.
Bu gün mənim ürəyimdə
Olmusan bir yara, qovaq,
Ey ünvansız qara qovaq.

✍ **Tacəddin ŞAHDAĞLI,**
**Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü.**



## Soyuqbulaq

***Deyirlər, soyuqdur bulağın adı***
***Ətrafı dağlardır, yanı meşəlik,***
***Biləm, kim vermişdir ona bu adı?***
***Cana səfa verir, ömrə gözəllik.***

***Tarixi bilinmir, neçə yaşı var?..***
***Suyu gah lal axır, gah da kükrəyir***
***Babalardan bizə qalıb yadigar***
***Dağlardan güc alır, dərədən gəlir.***

***Yolçu qardaş, ayaq saxla bir dayan,***
***Bu qəlbi dağların sirrinə bir bax***
***İçib bulaqların büllur suyundan***
***Sən onu xatırla, xatırla ancaq.***

## Təbiət lövhələri

***Axşam çağı, bulaq başı təkcə mən,***
***Elə xəyallıyam gündüzdən bəri.***
***Yenə seyr edirəm mavi göyləri***
***Bir xəyal karvanı keçir önümdən.***

***Hərdən sakit axan bulağın səsi,***
***Başqa bir aləmə aparır məni,***
***Axşam küləyinin isti nəfəsi***
***Fikirdən, xəyaldan ayırır məni.***

***Səmaya baxıram gözüm qaralır,***
***Göydə ulduzların sayı bilinmir.***
***Biri günəş kimi orda parlayır,***
***Başqası hələ də danışmır, dinmir.***

✍ **Səməd SƏMƏDOV.**

*6 noyabr Azərbaycan radiosu günüdür*

## Azərbaycan radiosu, 90 yaşın mübarək!

Ey radiom, danış din,
Hər zaman gəlsin səsin,
Örnəyisən hər kəsin.
De dinləyək, öyrənək,
Doxsan yaşın mübarək!

Ucadan danışırsan,
Sərhədləri aşırsan,
Ölkələr dolaşırsan.
Sürətlisən fikir tək,
Doxsan yaşın mübarək!

Efirdə quş qanadlı,
Verilişlər yüz adlı,
Şirin, baməzə, dadlı.
Hər arzun aşsın çiçək,
Doxsan yaşın mübarək!

Hamı heyran «bulağa»,
Çatırsan hər qulağa,
Arana, həm yaylağa.
Dostumuz yox sənintək,
Doxsan yaşın mübarək!

Gözəl səslər ocağı,
Açıb bizə qucağı,
De, olub-olacağı.
«Ovqat» yoxdur sənin tək,
Doxsan yaşın mübarək!

Soltan, Aydın, Məhluqə,
Fatma, Eldost, Əminə.
Gözəl səsdən xəzinə
Yaşatdın ölməyəcək,
Doxsan yaşın mübarək!

«Danışır Bakı»—səsin,
Nə bitsin, nə tükənsin,
Kürreyi-ərzi gəzsin.
Biz dinləyib sevinək,
Doxsan yaşın mübarək!
Doxsan yaşın mübarək!

✍ **Əhməd MƏMMƏDLİ,**
**Qəbələ rayon Nic qəsəbəsi, müəllim.**

## Xatirələr



Mənim səssiz otağım
Xatirələr yığnağı.
Soruşmamış danışır,
Ömürdən keçən çağı.

Dünyadan geniş idi
Bu kiçik otağımız.
Sığışırdı otağa
Bütün istəklərimiz.

Ora samavar qoyub,
Bura süfrə salardıq.
Körpələrin səsiylə,
Həyatdan kam alardıq.

Olardı qonağımız
Yaxın dostlar, tanışlar.
Uşaqların sevdiyi
Tapmacalar, nağıllar.

Mənim səssiz otağım,
Xatirələr yığnağı.
Soruşmamış danışır
Mənə keçən çağları.
Mən bu kiçik otaqda
Dərindən anlamışam
Həm sevinci, həm dərdi,
Ancaq duya bilmədim
Qocalıq necə gəldi.

Mənim səssiz otağım,
Xatirələr yığnağı.
Oturub düşünürəm,
İndi başa düşürəm
Xatirələr yığnağı
Özü qocalıq imiş.
Qocalığın özü də
Çox şirin xatirəymiş.

✍ **Sədiyar SƏFƏRƏLİYEV,**
**Qəbələ şəhəri.**

## Gözəlləşən Qəbələ

Qızıl günəş parlayanda hər səhər,
Əsrarəngiz görünürsən nə qədər.
Əfsanəvi bir şəhərsən, bir şəhər,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Havalıdı Komrad dağı, Bəy dağı,
Vəfalıdı Alı, Şonqar bulağı.
Səfalıdı Laza, Duruca yaylağı,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Nohur gölü ay-ulduzlu göləndü,
"Yeddi Gözəl" bir bəzənmiş gəlindi.
Şəhərlərlə sən yarışa gəl indi,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Mirzəbəylin, Qəmərvanın gözəldi,
Soltannuxan, Zarağanın gözəldi.
Sən gözəlsən hər bir yanın gözəldi,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Tarlaların lalələrdən don geyir,
Bülbüllərin qonaqlara "gəl" deyir.
Qozlu yolun hansı yola bənzəyir?
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Yer üzündə belə bahar, yay hanı?
Vəndamçay tək, Qaraçay tək çay hanı?
Sinəndəki bağça-bağa tay hanı?
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Şöhrətindi şimalında Tufandağ,
Zirvəsində gur şimşəklər çaxan dağ,
Qocaların cavanlar tək çağdi, çağ,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Can dərmanı otun, gülün, çiçəyin,
Şəlalələr yağış səsli tütəyin,
Gözəllərin darağıdı küləyin,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Ləzzətlidir çörəyin də, duzun da,
Qiymətlidi fıdığın da, qozun da.
Qeyrətlidi oğulun da, qızın da,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Yaşıl-yaşıl dərələrin dərindi,
Quş nəğməli meşələrin sərindi.
Almaların, armudların şirindi,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

İnsan oğlu yüz il yaşar burada,
Şair olar şeir qoşar burada.
Arzular da aşıb-daşar burada,
Dildən-dilə adı düşən Qəbələ,
Gündən-günə gözəlləşən Qəbələ.

Azalmasın sənin bu cah-calalın,
Bir cənnətsən, varmı sorğu-sualın?
İlhamısan daim Şakir Xəyalın.
Nə doğmasan, nə əzizsən sən belə!
Dildən-dilə adı düşən Qəbələ!
Gündən-günə gözəlləşən Qəbələ!

✍ **Şakir XƏYAL,**
**Soltannuxa kəndi.**